

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 113 (23.275)

21 iyun 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## 2019-cu ilin yanvar-may aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2019-cu ilin yanvar-may aylarında 985 milyon 236 min 400 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur. Bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur.

Hər nəfərə düşən ümumi daxili məhsulun həcmi 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz artaraq 2157,3 manat olmuşdur.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 441 milyon 725 min manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2019-cu ilin yanvar-may aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 399 milyon 82 min manat vəsait yönəldilmişdir. Bu da bir il öncəki göstəricidən 1,1 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 382 milyon 752 min manatı və ya 95,9 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2019-cu ilin yanvar-may aylarında 54 milyon 392 min 800 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur. Bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,6 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 9166 ton, süd istehsalı isə 36317,4 ton olmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 2,2 faiz, süd istehsalı isə 2 faiz artmışdır.

* * *

2019-cu ilin yanvar-may aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 21 milyon 525 min manat olmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 3,8 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 17 milyon 111 min 200 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,7 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2019-cu ilin yanvar-may aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 34 milyon 638 min manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 51,3 faiz çoxdur. Verilmiş kreditlərin 5 milyon 101 min 300 manatı və yaxud 14,7 faizi qısamüddətli, 29 milyon 536 min 700 manatı və yaxud 85,3 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 383 növdə məhsul istehsal olunur ki, bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 iyun 2019-cu il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 81450-yə çatmışdır. Bunun da 72107-si və ya 88,5 faizi aktiv hesablardır. 2019-cu ilin yanvar-may aylarında açılmış 10969 bank hesabının 10929-u aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 iyun 2019-cu il tarixə 1276-ya çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2019-cu ilin yanvar-may aylarında 151 milyon 89 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 127 milyon 395 min ABŞ dolları təşkil etmiş, 103 milyon 701 min 100 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2019-cu ilin yanvar-aprel aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 436,8 manat təşkil etmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz çoxdur.

* * *

1 may 2019-cu il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3228 nəfər artaraq 457 min nəfərə yaxın olmuşdur.

*Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti*

## Daşınmaz əmlak obyektləri plana alınır



Muxtar respublikada daşınmaz əmlakın kadastrı və reyestrinin təkmilləşdirilməsi sahəsində ardıcıl fəaliyyətin təmin edilməsi 2019-cu ilin may ayında da Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən diqqətdə saxlanılmışdır. May ayında 17 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə götürülmüş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmış, Naxçıvan şəhəri, Ordubad və Şahbuz rayonlarında ailə təsərrüfatlarında əkin atlaslarının uyğun əkinlərin aparılması ilə bağlı maarifləndirici tədbirlər keçirilmişdir.

Şərur rayonunda daşınmaz əmlak obyektlərinin plana alınması başa çatdırılmış, Kəngərli rayonunda planaalma işlərinə başlanılmışdır. Ay ərzində 2063 daşınmaz əmlak obyekti plana alınmışdır. Kəngərli Rayon İcra Hakimiyyətində torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilmişdir. Şahbuz rayonunun Kükü, Qızıl Qışlaq və Güney Qışlaq bələdiyyələrinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmış və torpaqların növləri üzrə uçotu aparılmışdır.

May ayında 479 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınmış, 383 texniki sənəd hazırlanmış, yeni yaranmış 62 daşınmaz əmlak obyektinə ünvan verilmişdir. 75 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. Naxçıvan şəhərində daşınmaz əmlak obyektlərinin ünvanlarının dəqiqləşdirilməsi davam etdirilmiş, 10 küçədə quraşdırılacaq ünvan lövhələrinin və giriş nömrə nişanlarının miqdarı müəyyənləşdirilmişdir. Komitənin səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 8 yaşayış məntəqəsində 39 vətəndaşın müraciətinə baxılmış, 145 vətəndaşa elektron xidmətlər göstərilmişdir.

*Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti*

## Suvarma mövsümü mütəşəkkil keçir

Muxtar respublikada suvarma mövsümünün mütəşəkkil keçirilməsi diqqət mərkəzindədir. Əkin sahələrinin suya olan tələbatını ödəmək üçün may ayında bir sıra tədbirlər görülmüş, 21 kilometr magistral kanal, 31 kilometr ara arxlar və 4 kilometr kollektor lildən təmizlənmiş, 19 kilometr yeni suvarma xətti çəkilmişdir. Torpaq sahələrini sel sularının zərərli təsirindən qorumaq üçün Naxçıvançay, Arpaçay, Cəhriçay vadilərində və Qahab selovunda, ümumilikdə, 3 kilometr selə qarşı istiqamətləndirici bənd salınmışdır.

Mütərəqqi suvarma şəbəkələrinin qurulması və yeni su xətlərinin çəkilməsi sahəsində görülən işlər də diqqətdə saxlanılmış, Kəngərli rayonunun Yurdçu kəndində 76 hektar, Şahbuz rayonunun Türkeş kəndində 300 hektar ərazidə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, 13 kilometr suvarma xətti çəkilmişdir. Muxtar respublikada su təminatının həyata keçirilməsində subartezian quyularının və kəhrizlərin gücündən də geniş istifadə olunur. Qeyd olunan dövrdə 82 subartezian quyusunda və 5 kəhrizdə təmir-bərpa işləri aparılmışdır.

“Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində Şərur rayonunun Zeyvə və Düdəngə kəndlərində müxtəlif diametrli borularla 6210 metr yeni içməli su xətti çəkilmişdir.

*Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti*

## Pensiyalar vaxtında ödənilir

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu may ayında nəzərdə tutulmuş tapşırıqların icrasını təmin etmişdir. Fond əmək pensiyaçılarına pensiya ödənişinin vaxtından əvvəl maliyyələşdirilməsi üçün müvafiq tədbirlər həyata keçirmişdir. Bu məqsədlə tələb olunan 11 milyon 829 min manat vəsait pensiyaçıların plastik kart hesablarına köçürülmüş və ya yerlərdə poçt bölmələri vasitəsilə pensiyaçılara çatdırılmışdır. Həmçinin məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də vaxtında ödənilməsi təmin edilmişdir.

Pensiya hüququ yaranmış vətəndaşlara fond tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş qaydada pensiyaların təyinatı üçün müvafiq işlər görülmüşdür. Belə ki, 141 vətəndaşa əmək pensiyası təyin olunmuşdur ki, bunlardan 89-u yaşa, 20-si əlilliyə, 32-si isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxmış vətəndaşlardır.

“Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq olaraq hesabat dövründə fərdi uçot sistemində işlər davam etdirilmişdir. Fond muxtar respublikada əmək fəaliyyətinə yeni başlayan işçilərin fərdi uçot sistemində qeydiyyata alınması və sosial sığorta şəhadətnamələri ilə təmin olunmasını diqqətdə saxlamışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 23 aprel tarixli “1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında” Sərəncamının icrası vaxtında təmin edilmişdir.

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti*

## Şərur rayonunun yeni quruculuq ünvanları

Muxtar respublikanın ən böyük bölgəsi olan Şərur rayonunda istehsal müəssisələri, təhsil, səhiyyə və digər qurumlar üçün binaların tikintisi, yolların və digər infrastrukturların yenilənməsi diqqət mərkəzində saxlanılır. Cari ildə də belə tədbirlər sürətlə davam etdirilir, geniş və iri layihələr icra olunur. Belə ki, “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının inzibati binası, Muğanlı, Muğancıq-Mehrab, Xələc, Yeni Havuş, Xətai kəndlərində kompleks quruculuq işləri, Məmmədsabirdə kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası, Alışarda kənd və xidmət mərkəzləri, feldşer-mama məntəqəsi, Qışlaqabbasda xidmət və kənd mərkəzləri, Maxta kəndində Çernobıl əlili üçün yaşayış binası inşa olunur.

Dizə kəndində gücü saniyədə 271 litr olan sutəmizləyici qurğunun və 27 min kubmetr həcmində üç su anbarının tikintisinə, Zeyvə və Düdəngə kəndlərinə isə içməli su xətti çəkilişinin ikinci mərhələsinə başlanılıb. Şərur şəhəri ilə Məmmədsabir-Muğancıq-Mehrab-Qarxun, Muğanlı-Qorçulu kəndlərinin avtomobil yoluna asfalt örtüyünün salınması, Şərur şəhərində Mədəniyyət Sarayının inşası, mərasim evinin, Təqaüdçülər klubunun, Şərur şəhər mərkəzi univermağının əsaslı təmiri və yenidən qurulması davam etdirilir. Rayon mərkəzində müasir yaşayış binasının da tikintisinə başlanılıb.





Onu da bildirək ki, Naxçıvan-Sədərək magistralından Şərur şəhərinə qədər olan, eləcə də şəhərdəki Heydər Əliyev prospektini və 6 küçəni əhatə edən 11 kilometrlik avtomobil yolu da yenidən qurulur, yolun yatağı genişləndirilir, asfalt örtük salınmasına hazırlıq işləri görülür.

Qeyd edək ki, bu ilin əvvəllərində Şərur şəhərində uşaq xəstəxanası, Kərimbəyli kəndində 270 şagird yerlik tam orta məktəb binası, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası istifadəyə verilib, avtomobil yolu yenidən qurulub.

**Ramiyyə ƏKBƏROVA**

### Oxunması zəruri olan kitablar gənclərin gözü ilə

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamdan ötən dövr ərzində mütaliənin gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın formalaşdırılması, onların dünyagörüşünün zənginləşdirilməsi, dövlətçilik, vətənpərvərlik ruhunda tərbiyə olunması baxımından zəruriliyi bir daha təsdiqləndi. Siyahıya daxil edilən kitabların nəşri və təbliği, müntəzəm müzakirələrinin keçirilməsi, mətbuatda resenziyaların və bu əsərlərdən seçmələrin dərc olunması kimi əhəmiyyətli tədbirlərlə yanaşı, muxtar respublikanın ümumtəhsil məktəblərində də məqsədyönlü maarifləndirmə işləri aparılır. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən cari ilin aprel ayında ümumtəhsil məktəblərində "Mütaliə aylığı" keçirilib.*

*Məktəblilərin oxunması zəruri olan kitablar haqqında redaksiyamıza ünvanladıqları esselər mütaliənin onların bilik dairəsinin, bədii zövqünün, əxlaqi-mənəvi dəyərlərinin formalaşmasına əhəmiyyətli təsir göstərdiyini bir daha təsdiq edir. Biz də gənclərin milli təfəkkür və müasir yanaşma tərzi ilə fərqlənən həmin esselərini "Oxunması zəruri olan kitablar gənclərin gözü ilə" rubrikasında oxucularımıza da təqdim etməyi qərarına gəldik.*

## "Nizaminin hikmət və nəsihətləri" humanist ideyalar aşılayır

**(Esse)**

Dahi Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığında Azərbaycan xalqının atalar sözlərindən geniş istifadə etmiş, onu öz dərin zəkasının məhsulu ilə yazılan beytlərində əks etdirmişdir. Klassik şairin əsərləri biz gənclər tərəfindən sevilərək mütaliə olunur və bizi daha dərin düşüncələrə sövq edir.




"Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilən "Nizaminin hikmət və nəsihətləri" kitabını oxuduqca görürük ki, bizə dostluq və düşmənçilik, Vətən və xalqa xidmət, hünər, cəsarət və mərdlik, çalışqanlıq və tənbəllik, idrak və cəhalət, sevgi və sədaqət, gənclik və qocalıq haqqında dəyərli nəsihətlər verilmişdir.

Övlad tərbiyəsi haqqında da bizə ibrətamiz nəsihətlər verən şair "Kərpickəsən kişinin hekayəsi"ndə təsvir edir ki, qoca öz sözləri ilə oğlana təsir etmiş, onu tərbiyələndirmişdir:

*Bir elm öyrənmək istədikdə sən,*
*Çalış ki, hər şeyi kamil biləsən.*
*Kamil bir palançı olsa da insan,*
*Yaxşıdır yarımçıq papaqçılıqdan.*

Nizami insanları xoş niyyətlərə çağırmışdır. Qardaşlığı, insanlığı, dostluğu tərənnüm etmişdir:

*Kim yaxşı adamların bəyənsə dostluğunu,*
*Bir gün görər onların yararlı olduğunu.*

"Nizaminin hikmət və nəsihətləri"ndə insan zəkasının təbiət və cəmiyyətin inkişaf qanunlarına, həyatın sirli mənalarına getdikcə daha çox yol açdığını görmək olur.

*İnsana arxadır onun kamalı,*
*Arxadır hər kəsin dövləti, malı*

Nizaminin aforizmləri, onun ağıl və idrak haqqında dediyi sözlər orta əsr qaranlıqları içərisindən sönməz Günəş kimi dünyaya işıq salır.

**Ayşən NƏCƏFOVA**
***Şərur rayon Mahmudkənd tam orta məktəbinin IX sinif şagirdi***

## Bağlardan yığılan meyvələr hərbi hissələrə təhvil verilir





*Bu gün muxtar respublikadakı ordu, birləşmə və hissələr hərtərəfli təminata, ən müasir silah-sursata və peşəkar şəxsi heyətə malikdir.*

Ordumuzun qüdrətini artıran mühüm amillərdən biri də xalq-ordu birliyidir. Naxçıvan Muxtar Respublikasında bu məsələ daim diqqətdə saxlanılır, ardıcıl tədbirlər həyata keçirilir. Muxtar respublika əhalisinin, dövlət qurumlarının, müəssisə və təşkilatların, ayrı-ayrı sahibkarlıq subyektlərinin əlamətdar və bayram günləri ərəfəsində hərbi hissələrə sovqat aparmaları şəxsi heyət tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır.

Bu ənənə 26 İyun – Silahlı Qüvvələr Günü ərəfəsində də davam etdirilir. Belə ki, muxtar respublikanın nazirlik, idarə, müəssisə və təşkilatları tərəfindən meyvə bağlarından yığılan məhsulun bir hissəsi hərbi hissələrə təhvil verilir.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə, ümumilikdə, 1 tondan artıq ərik, alma, alça muxtar respublikanın Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayına aparılıb.

Şərur Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə idarə, müəssisə və təşkilatların kollektivlərinin rayondakı meyvə bağlarından yığdıqları 25 ton, Babək rayonundan isə 5 ton alma, ərik, alça, gilas, gilənar Naxçıvan şəhərindəki hərbi hissəyə təqdim edilib.

Bununla yanaşı, Kəngərli və Sədərək rayon sakinləri də hərbçilərə, ümumilikdə, 7 ton meyvə sovqatı göndəriblər. Culfa rayonunda isə hərbi hissə üçün meyvə bağlarından 1 tondan artıq məhsul toplanılıb.

**Xəbərlər şöbəsi**

## Əcnəbilərin iştirakı ilə tədbir keçirilib



Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində keçirilən tədbiri giriş sözü ilə açan xidmətin əməkdaşı Vəli Quliyev bildirib ki, belə tədbirlərin təşkili həm muxtar respublikamızda yaşayan və əmək fəaliyyəti ilə məşğul olan əcnəbilərin miqrasiya sahəsində maariflənməsinə, həm də qədim diyarımızın turizm potensialının təbliğinə xidmət edir.

Vurğulanıb ki, yarandığı ilk gündən fəaliyyətini insan hüquq və azadlıqlarının qorunması, humanizm və qanunçuluq prinsipləri əsasında həyata keçirən Dövlət Miqrasiya Xidməti miqrasiya sahəsində qazandığı uğurların təzahürü kimi muxtar respublikada əcnəbilərin hüquqi təminatçısına çevrilib. Qədim diyarımıza gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının həyata keçirilməsi, müvəqqəti və daimi yaşamaq, həmçinin haqqıödənilən əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazələrinin verilməsi, onların olduğu yer və yaşayış yeri üzrə qeydiyyatı, müvəqqəti olma müddətinin uzadılması, vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi, eləcə də qanunsuz miqrasiyaya qarşı mübarizə məsələləri daim diqqət mərkəzində saxlanılır. Xidmət əməkdaşı çıxışında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri ilə bağlı qanunvericilikdə nəzərdə tutulan məqamlara toxunub, bu barədə slayd vasitəsilə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Vəli Quliyev Dövlət Miqrasiya Xidmətinin rəsmi saytının əcnəbilərin və ölkə ictimaiyyətinin daha rahat istifadəsi üçün cari ilin əvvəlində tamamilə yeniləndiyini, həm funksionallıq, həm dizayn baxımından müasirləşdirildiyini qeyd edib. Bu, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri ilə bağlı məlumatlı olmalarına, maariflənmələrinə xidmət edir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin əməkdaşı Orxan Cəfərov qeyd edib ki, Naxçıvanın zəngin turizm potensialı, ecazkar təbii gözəllikləri, tarixi-mədəni abidələri, həmçinin müasir təhsil bazası əcnəbilərin muxtar respublikaya olan marağını ilbəil artırır.

Sonra tədbir iştirakçıları "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi haqqında hazırlanmış videomateriala baxıblar.

Sonda əcnəbilərin Əshabi-Kəhf ziyarətgahına ekskursiyası təşkil olunub. Tədbir əcnəbilərdə xoş ovqat yaradıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Sakinlər tərəfindən muzeyə 50-dən çox eksponat təqdim edilib



Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinə rayonun Nüsnüs kənd sakini Oruc Əliyev, Kotam kənd sakini Sevda Qulamova, Gənzə kənd sakini Fəlah Məmmədov, Düylün kənd sakini Tamilə Abdullayeva, Üstüpü kənd sakini Hikmət Orucov, Qoruqlar kənd sakini Sarvan Məmmədli tərəfindən qədim tariximizi və mədəniyyətimizi əks etdirən küpə, mis məişət əşyaları, daş əmək alətləri, xurcun və digər nümunələrdən ibarət 50-dən çox eksponat təqdim edilib.

Bu münasibətlə iyunun 20-də keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova bildirib ki, muzeylər zamanın müxtəlif məqamlarını özündə yaşadan, qoruyub saxlayan, öyrənən, nümayiş etdirən maddi-mənəvi xəzinədir.

Natəvan Qədimova bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində tariximizin və mədəniyyətimizin saxlanc yeri olan yeni-yeni muzeylər istifadəyə verilib, onların maddi-texniki bazası möhkəmləndirilib. Bunun nəticəsidir ki, bu gün qədim diyarımızda 30 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir. Muxtar respublikanın muzeylərində xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 140 mindən çox maddi-mədəniyyət nümunələri mühafizə olunaraq qorunub saxlanılır.

Vurğulanıb ki, muxtar respublikada muzeyşünaslıq işinin inkişafı istiqamətində görülən digər tədbirlərlə yanaşı, muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması da daim diqqət mərkəzində saxlanılır. Bu prosesdə muzeylərin əməkdaşları və muxtar respublika vətəndaşları yaxından iştirak edirlər. Ötən il muzeylərimizə 1564 yeni eksponat daxil olub. Bu ilin 5 ayı ərzində isə həmin mədəniyyət müəssisələri daha 1081 eksponatla zənginləşdirilib. 2019-cu ilin may ayınadək, ümumilikdə, 7 eksponat təqdimatı keçirilib. Sevindirici haldır ki, bu aksiyaya artıq yetişməkdə olan gənc nəsil – məktəblilər də qoşulub. Bu ilin yanvar və may aylarında keçirilən eksponat təqdimatlarında muxtar respublikanın təhsil müəssisələrinin müəllim və şagirdləri də iştirak ediblər.

Natəvan Qədimova çıxışının sonunda mədəniyyətimizə, tariximizə göstərdiyi böyük diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə bu sahədə çalışan insanlar adından dərin minnətdarlıq edib. Nazir maddi mədəniyyət nümunələrini muzeyə təqdim etdiklərinə görə Ordubad rayon sakinlərinə təşəkkür edib.

Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Vilayət Bağırov rayon sakinlərinin bu təşəbbüsünü yüksək dəyərləndirib və yeni eksponatların muzeyin zənginləşdirilməsinə xidmət edəcəyini vurğulayıb.

Eksponatları muzeyə təqdim edənlərdən Oruc Əliyev, Sevda Qulamova, Fəlah Məmmədov çıxış edərək bildiriblər ki, bu gün muxtar respublikada maddi-mədəni irsimizin qorunub yaşadılması və gələcək nəsillərə çatdırılması sahəsində davamlı tədbirlər həyata keçirilir. Vətəndaşlar tərəfindən qədim məişət əşyalarının muzeylərə təqdim edilməsi zəngin mədəni irsimizin qorunub yaşadılmasına və gələcək nəsillərə çatdırılmasına xidmət edir.

Tədbirdə qeyd olunub ki, sakinlər muxtar respublikada maddi mədəniyyət nümunələrinin toplanmasında bundan sonra da fəal iştirak edəcəklər.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

**Əli RZAYEV**

## Sonuncu kurs tələbələri vakansiyalarla tanış olublar



"Sabahın müəllimi" layihəsi çərçivəsində "Naxçıvan" Universitetində pedaqoji profilli ixtisasların buraxılış kurs tələbələri ilə görüş keçirilib. Məzunlar ümumtəhsil məktəblərində vakant müəllim yerləri ilə tanış ediliblər.

Universitetin prorektoru Hüseyn Bağırsoylu çıxış edərək bildirib ki, yeni layihənin tətbiqində əsas məqsəd pedaqoji profilli ixtisaslarda oxuyan tələbələri təhsildəki yeniliklər haqqında məlumatlandırmaq, onların ümumtəhsil məktəblərində pedaqoji təcrübələrini təşkil etmək, tələbələrin dərslik və metodik vəsaitlərin müzakirəsində iştirakına nail olmaqdır. Müəllim təcrübəsinin paylaşılması və məzunların işlə təmin edilməsindən ibarət olan yeni layihə muxtar respublikada innovativ təcrübəli müəllim kadrların hazırlanmasına da müsbət təsir göstərəcək.

Tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini Ovni Muradov qeyd edib ki, "Sabahın müəllimi" layihəsinə uyğun olaraq muxtar respublikada gənc kadrların işlə təminatı diqqətdə saxlanılır. "Naxçıvan Muxtar Respublikasında müəllimlərin ümumtəhsil müəssisələrinə işə qəbul qaydaları"na əsasən dövlət ümumtəhsil müəssisələrinə işə qəbul müsabiqə yolu ilə həyata keçirilir.

Sonra Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin şöbə müdiri Abdulla Əsgərov pedaqoji profilli ixtisasların buraxılış kurs tələbələrinə slaydlar vasitəsilə muxtar respublikanın ümumtəhsil məktəblərində olan vakant müəllim vəzifələri, müəllimlərin ümumtəhsil müəssisələrinə işə qəbul qaydaları və gənc mütəxəssislər üçün əlavə güzəştlər və stimullaşdırıcı tədbirlər haqqında geniş məlumat verib.

Şərur rayon Havuş kənd tam orta məktəbinin tarix müəllimi Rəfail Hüseynov çıxış edərək muxtar respublikanın şəhər və rayon mərkəzləri ilə yanaşı, ucqar kəndlərində də gənc kadrlar üçün yaradılan şəraitə, müəllim əməyinə verilən yüksək qiymətə və göstərilən qayğıya görə həmkarları adından minnətdarlıq bildirib.

**Seyfur HACIMURADOV**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 21 iyun-22 iyul 2019-cu il tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında *(www.dqmk.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər test imtahanında iştirak üçün 70 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ komissiyanın "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətindəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək komissiyaya təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər komissiyaya gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dqmk@nakhchivan.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Təhsil müəssisəsi | İxtisas | Vakant yerlərin sayı | Vakant saatların miqdarı | Qeyd |
|---|---|---|---|---|---|
| | **Naxçıvan şəhəri üzrə:** | | | | |
| 6910309 | 3 №-li tam orta məktəb | Fizika | 1 | 12 | * |
| 6910314 | 3 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | * |
| 6910325 | 3 №-li tam orta məktəb | Fransız dili | 1 | 12 | * |
| 6910318 | 3 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 3 | 36 | * |
| 6910319 | 3 №-li tam orta məktəb | İnformatika | 1 | 12 | * |
| 6910316 | 3 №-li tam orta məktəb | Musiqi | 1 | 12 | * |
| 6910321 | 3 №-li tam orta məktəb | Rus dili və ədəbiyyatı | 1 | 12 | * |
| 6910312 | 3 №-li tam orta məktəb | Tarix | 1 | 12 | * |
| 6910414 | 4 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6910514 | 5 №-li tam orta məktəb | Fiziki tərbiyə | 2 | 24 | |
| 6910614 | 6 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6910714 | 7 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6910814 | 8 №-li tam orta məktəb | Fiziki tərbiyə | 2 | 24 | |
| 6910821 | 8 №-li tam orta məktəb | Rus dili | 1 | 12 | |
| 6910921 | 9 №-li tam orta məktəb | Rus dili | 1 | 12 | |
| 6911214 | 12 №-li tam orta məktəb | Fiziki tərbiyə | 2 | 24 | |
| 6911414 | 14 №-li tam orta məktəb | Fiziki tərbiyə | 2 | 24 | |
| 6911614 | 16 №-li tam orta məktəb | Fiziki tərbiyə | 2 | 24 | |
| 6911714 | 17 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| | **Cəmi:** | **26 yer** | | | |
| | **Şərur rayonu üzrə:** | | | | |
| 6900413 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | Coğrafiya | 1 | 12 | |
| 6900414 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | Fiziki tərbiyə | 1 | 12 | |
| 6900425 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | Fransız dili | 1 | 12 | |
| 6920809 | Axaməd kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6920825 | Axaməd kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | |
| 6920919 | Axura kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6920920 | Axura kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6920910 | Axura kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6920313 | Alışar kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6920309 | Alışar kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6920319 | Alışar kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6920308 | Alışar kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 20 | |
| 6920409 | Aralıq kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6920616 | Aşağı Daşarx kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6920617 | Aşağı Daşarx kənd tam orta məktəbi | Təsviri incəsənət | 1 | 12 | |
| 6920711 | Aşağı Yaycı kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6920713 | Aşağı Yaycı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6920725 | Aşağı Yaycı kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | |
| 6920718 | Aşağı Yaycı kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6920719 | Aşağı Yaycı kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6920717 | Aşağı Yaycı kənd tam orta məktəbi | Təsviri incəsənət | 1 | 12 | |
| 6921320 | Çomaxtur kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6921316 | Çomaxtur kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6921415 | Danyeri kənd tam orta məktəbi | Texnologiya | 1 | 12 | |
| 6921521 | Dəmirçi kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6921609 | Dərəkənd kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6921610 | Dərəkənd kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6921717 | Dərvişlər kənd tam orta məktəbi | Təsviri incəsənət | 1 | 12 | |
| 6921811 | Diyadin kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6921813 | Diyadin kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6921818 | Diyadin kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6921820 | Diyadin kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6921920 | Dizə kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6922325 | Gümüşlü kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | ** |
| 6922318 | Gümüşlü kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | ** |
| 6922310 | Gümüşlü kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6922308 | Gümüşlü kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | ** |
| 6922407 | Havuş kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyatı | 1 | 12 | ** |
| 6922413 | Havuş kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6922419 | Havuş kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | ** |
| 6922408 | Havuş kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | ** |
| 6922510 | Həmzəli kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6922508 | Həmzəli kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6924909 | Xanlıqlar kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6925013 | Xələc kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925025 | Xələc kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | |
| 6925020 | Xələc kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6922911 | Kürçülü kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6923709 | Qaraburc kənd ümumi orta məktəbi | Fizika | 1 | 12 | |
| 6924013 | Qorçulu kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924020 | Qorçulu kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6923213 | Maxta kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6923218 | Maxta kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6923309 | Muğancıq-Mehrab kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6923413 | Muğanlı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6923625 | Püsyan kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6923619 | Püsyan kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6923620 | Püsyan kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6923610 | Püsyan kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6923616 | Püsyan kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6924113 | Sərxanlı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924219 | Siyaqut kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6924413 | Şəhriyar kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924417 | Şəhriyar kənd tam orta məktəbi | Təsviri incəsənət | 1 | 12 | |
| 6924520 | Tənənəm kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6924613 | Təzəkənd kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6924713 | Tumaslı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924819 | Vərməziyar kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6924820 | Vərməziyar kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6925211 | Yengicə kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6925213 | Yengicə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925221 | Yengicə kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6925313 | Yeni Havuş kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925309 | Yeni Havuş kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6925521 | Yuxarı Yaycı kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | ** |
| | **Cəmi:** | **75 yer** | | | |
| | **Babək rayonu üzrə:** | | | | |
| 6930113 | Babək qəsəbə 1 №-li tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6930119 | Babək qəsəbə 1 №-li tam orta məktəb | İnformatika | 1 | 12 | |
| 6930420 | Aşağı Buzqov kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6930514 | Cəhri kənd 1 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | ** |
| 6930613 | Cəhri kənd 2 №-li tam orta məktəb | Coğrafiya | 1 | 12 | ** |
| 6930911 | Gərməçataq kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6930921 | Gərməçataq kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | ** |
| 6931107 | Gülşənabad kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyatı | 1 | 12 | ** |
| 6931111 | Gülşənabad kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6931113 | Gülşənabad kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6931109 | Gülşənabad kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6931114 | Gülşənabad kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | ** |
| 6931119 | Gülşənabad kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | ** |
| 6931120 | Gülşənabad kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6931108 | Gülşənabad kənd tam orta məktəbi | Riyaziyyat | 2 | 35 | ** |
| 6933218 | Xal-xal kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | ** |
| 6931420 | Kərimbəyli kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6931513 | Kültəpə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6932516 | Qahab kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6932613 | Qaraqala kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6931621 | Məmmədrza Dizə kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6931713 | Məzrə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6931813 | Naxışnərgiz kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6931818 | Naxışnərgiz kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6931820 | Naxışnərgiz kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6931821 | Naxışnərgiz kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6932118 | Nehrəm kənd 1 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6932218 | Nehrəm kənd 2 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6932313 | Nehrəm kənd 3 №-li tam orta məktəb | Coğrafiya | 2 | 26 | |
| 6931914 | Nəcəfəlidizə kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6932010 | Nəhəcir kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6932714 | Sirab kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6933021 | Uzunoba kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6933421 | Yarımca kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6933510 | Yuxarı Buzqov kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| | **Cəmi:** | **37 yer** | | | |
| | **Ordubad rayonu üzrə:** | | | | |
| 6940119 | Ordubad şəhər 1 №-li tam orta məktəb | İnformatika | 1 | 12 | |
| 6940121 | Ordubad şəhər 1 №-li tam orta məktəb | Rus dili | 1 | 12 | |
| 6940409 | Aşağı Əylis kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6940418 | Aşağı Əylis kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | |
| 6940419 | Aşağı Əylis kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6940420 | Aşağı Əylis kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | |
| 6940408 | Aşağı Əylis kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6940513 | Aza kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6940518 | Aza kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | ** |
| 6940611 | Azadkənd kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6940614 | Azadkənd kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 14 | ** |
| 6940618 | Azadkənd kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | ** |
| 6940719 | Baş Dizə kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | ** |
| 6940708 | Baş Dizə kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 18 | ** |
| 6940813 | Behrud kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6940808 | Behrud kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | ** |
| 6940907 | Biləv kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyatı | 1 | 12 | ** |
| 6940913 | Biləv kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6941009 | Bist kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6941020 | Bist kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |

| | | | | | |
|---|---|---|---|---|---|
| 6941119 | Çənnəb kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | ** |
| 6941207 | Dəstə kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyatı | 1 | 18 | |
| 6941218 | Dəstə kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 2 | 28 | |
| 6941220 | Dəstə kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6941409 | Dırnıs kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6941620 | Düylün kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6941610 | Düylün kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6941621 | Düylün kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6941707 | Ələhi kənd ümumi orta məktəbi | Azərbaycan dili və ədəbiyyatı | 1 | 20 | ** |
| 6941711 | Ələhi kənd ümumi orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6941714 | Ələhi kənd ümumi orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | ** |
| 6941708 | Ələhi kənd ümumi orta məktəbi | Riyaziyyat | 1 | 20 | ** |
| 6941712 | Ələhi kənd ümumi orta məktəbi | Tarix | 1 | 12 | ** |
| 6941911 | Gənzə kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6941913 | Gənzə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6941910 | Gənzə kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6942007 | Gilançay kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyatı | 1 | 12 | ** |
| 6942013 | Gilançay kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6942018 | Gilançay kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | ** |
| 6942020 | Gilançay kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | ** |
| 6942010 | Gilançay kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6943407 | Xanağa kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyatı | 1 | 18 | |
| 6943413 | Xanağa kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6943511 | Xurs kənd tam orta məktəbi | Biologiya | 1 | 15 | ** |
| 6943519 | Xurs kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | ** |
| 6943508 | Xurs kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | ** |
| 6942111 | Kələki kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6942113 | Kələki kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6942213 | Kotam kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6942212 | Kotam kənd tam orta məktəbi | Tarix | 1 | 18 | |
| 6942311 | Nəsirvaz kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6942318 | Nəsirvaz kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | ** |
| 6942320 | Nəsirvaz kənd tam orta məktəbi | İngilis dili | 1 | 20 | ** |
| 6942310 | Nəsirvaz kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6942409 | Nürgüt kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6942419 | Nürgüt kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | ** |
| 6942420 | Nürgüt kənd tam orta məktəbi | İngilis dili | 1 | 22 | ** |
| 6942408 | Nürgüt kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | ** |
| 6942509 | Nüsnüs kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6942620 | Parağa kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | ** |
| 6942718 | Pəzməri kənd ümumi orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 16 | ** |
| 6942720 | Pəzməri kənd ümumi orta məktəbi | İngilis dili | 1 | 15 | ** |
| 6942708 | Pəzməri kənd ümumi orta məktəbi | Riyaziyyat | 1 | 15 | ** |
| 6942807 | Sabirkənd kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyatı | 1 | 15 | ** |
| 6942820 | Sabirkənd kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6943010 | Unus kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6943012 | Unus kənd tam orta məktəbi | Tarix | 1 | 12 | ** |
| 6943109 | Üstüpü kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6943114 | Üstüpü kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 14 | ** |
| 6943210 | Vələver kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6943320 | Vənənd kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | |
| 6943618 | Yuxarı Əylis kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 16 | |
| 6943610 | Yuxarı Əylis kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| **Cəmi:** | | **74 yer** | | | |
| **Culfa rayonu üzrə:** | | | | | |
| 6950511 | Boyəhməd kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6950513 | Boyəhməd kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6950613 | Camaldın kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6950620 | Camaldın kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6950713 | Dizə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6950718 | Dizə kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6951120 | Ərəzin kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6951211 | Gal kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6951313 | Göydərə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6951413 | Gülüstan kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6952314 | Xanəgah kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | ** |
| 6951711 | Milax kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6952013 | Saltaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6952107 | Şurud kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyatı | 1 | 12 | ** |
| 6952113 | Şurud kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6952120 | Şurud kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6952110 | Şurud kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6952211 | Teyvaz kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6952609 | Yaycı kənd 2 №-li tam orta məktəb | Fizika | 1 | 12 | |
| 6951525 | Kırna kənd tam orta məktəbi | Fransız dili | 1 | 12 | ** |
| **Cəmi:** | | **20 yer** | | | |
| **Kəngərli rayonu üzrə:** | | | | | |
| 6970116 | Qıvraq qəsəbə kənd tam orta məktəbi | Musiqi | 1 | 15 | |
| 6970117 | Qıvraq qəsəbə kənd tam orta məktəbi | Təsviri incəsənət | 1 | 15 | |
| 6970210 | Böyükdüz kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6970920 | Xıncab kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6970908 | Xıncab kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | ** |
| 6971018 | Xok kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6971020 | Xok kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6971016 | Xok kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6971008 | Xok kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 12 | |
| 6970411 | Qabıllı kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6970413 | Qabıllı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6970420 | Qabıllı kənd tam orta məktəbi | İngilis dili | 2 | 24 | |
| 6970410 | Qabıllı kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6970621 | Qarabağlar kənd 2 №-li tam orta məktəb | Rus dili | 1 | 18 | |
| 6970718 | Şahtaxtı kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6971113 | Yeni Kərki kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6971211 | Yurdçu kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6971214 | Yurdçu kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 14 | |
| 6971221 | Yurdçu kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| **Cəmi:** | | **20 yer** | | | |
| **Şahbuz rayonu üzrə:** | | | | | |
| 6960113 | Şahbuz şəhər 1 №-li tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6960213 | Şahbuz şəhər 2 №-li tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6960411 | Ağbulaq kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6960519 | Ayrınc kənd tam orta məktəbi | İnformatika | 1 | 13 | |
| 6960613 | Badamlı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961011 | Gömür kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961111 | Güney Qışlaq kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961113 | Güney Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961109 | Güney Qışlaq kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6961118 | Güney Qışlaq kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | |
| 6961213 | Keçili kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961212 | Keçili kənd tam orta məktəbi | Tarix | 1 | 12 | |
| 6961311 | Kolanı kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961319 | Kolanı kənd tam orta məktəbi | İnformatika | 1 | 13 | |
| 6961411 | Kükü kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961410 | Kükü kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961813 | Qızıl Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961814 | Qızıl Qışlaq kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 14 | |
| 6961611 | Mahmudoba kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961613 | Mahmudoba kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961609 | Mahmudoba kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6961619 | Mahmudoba kənd tam orta məktəbi | İnformatika | 1 | 13 | |
| 6961711 | Nursu kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6962007 | Şada kənd tam orta məktəbi | Azərbaycan dili və ədəbiyyatı | 1 | 12 | |
| 6962011 | Şada kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6962013 | Şada kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962009 | Şada kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6962018 | Şada kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 2 | 30 | |
| 6962020 | Şada kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | |
| 6962010 | Şada kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6962213 | Türkeş kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962219 | Türkeş kənd tam orta məktəbi | İnformatika | 1 | 13 | |
| 6962220 | Türkeş kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6962313 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962314 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 14 | |
| 6962318 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | |
| **Cəmi:** | | **37 yer** | | | |
| **Sədərək rayonu üzrə:** | | | | | |
| 6980118 | Heydərabad qəsəbə tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 18 | |
| 6980220 | Qaraağac kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | |
| 6980314 | Sədərək kənd 1 №-li tam orta məktəb | Fiziki tərbiyə | 1 | 18 | |
| 6980318 | Sədərək kənd 1 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 5 | 90 | |
| 6980320 | Sədərək kənd 1 №-li tam orta məktəb | İngilis dili | 2 | 36 | |
| 6980308 | Sədərək kənd 1 №-li tam orta məktəb | Riyaziyyat | 1 | 18 | |
| 6980420 | Sədərək kənd 2 №-li tam orta məktəb | İngilis dili | 1 | 18 | |
| **Cəmi:** | | **12 yer** | | | |
| **YEKUN:** | | **301 yer** | | | |

(*) Naxçıvan şəhər 3 №-li tam orta məktəbdə işə qəbul olunmaq üçün yalnız Rus dilini mükəmməl bilən şəxslər müraciət edə bilərlər.

(**) Bu müəssisələr Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 dekabr tarixli 150 nömrəli qərarına əsasən stimullaşdırıcı tədbirlər müəyyən edilən təhsil müəssisələridir.

***İtmişdir***

Naxçıvan şəhəri, Qaraxanbəyli kəndində yaşamış Əsədova Mələk Abdulla qızının adına olan 43 inventar nömrəli texniki pasport və MH-0019020 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 415